# İranlı Abbas Lisaninin azərbaycanlı pərəstişkarı şairi ona bağlayan nədir?

## *Fəzail İsmayıl: "Məni ona bağlayan çox şey var, bu həm də hər ikimizin əslən ərdəbilli olmağımızla bağlıdır"*

**Cənubi Azərbaycanda ictimai-siyasi fəal olan, İranda azərbaycanlıların milli haqları uğrunda mübarizə aparan və bu fəaliyyətinə görə həbs edilən Abbas Lisaninin haqlarını müdafiə edən tanınmış həkim-şair Fəzail İsmayıl müxtəlif mətbuat orqanlarında A.Lisani ilə bağlı məqalələrlə çıxışlar edir. F.İsmayıl redaksiyamıza gələrək A.Lisanini müdafiə etməsinin səbəblərini açıqladı.**

**- Fəzail müəllim, siz Abbas Lisanini şəxsən tanıyırsınızmı?**

- Yerli mətbuatda davamlı olaraq Abbas Lisaninin azadlığa çıxması barədə yazıram, onu müdafiə edirəm. Xeyr, Abbas Lisanini şəxsən tanımıram, onunla heç bir şəxsi tanışlığım yoxdur. Ancaq onun bir milli fəal kimi fəaliyyətini həmişə izləmişəm, təqdir etmişəm. Ümumiyyətlə, Güney Azərbaycanda baş verən prosesləri, Azərbaycanın bütövlüyü uğrunda orada aparılan mübarizəni hər zaman yaxından izləmişəm.

**- Sizi Abbas Lisaniyə nə bağlayır?**

- Abbas Lisani ilə mənim aramdakı doğmalıq səbəbsiz deyil. Məni ona bağlayan çox şey var, bu həm də hər ikimizin əslən Ərdəbilli olmağımızla bağlıdır. Mənim ata və ana nəslim ərdəbillidir. Onlar Ərdəbildə yaşayıblar. 1662-ci ildə Şah Abbasın dövründə saray intriqaları nəticəsində Ərdəbildən köçərək Quzey Azərbaycana - Ağdamın Abdal Gülablı kəndinə, İbadulla xanın yanına gəliblər, onunla qohum olublar. Şah Abbas farsyönümlü siyasət yürütdüyü üçün ulu babam Böyükkişi xan onun siyasətinə etiraz edib. Çünki babam Böyükkişi xan I Təhmasibin baş veziri olub.

Abbas Lisaninin siyasi fəaliyyətində məni cəlb edən əsas amillərdən biri də onun yenilməzliyi, əyilməzliyidir. Onu heç bir təpki, həbs öz əqidəsindən döndərə bilmir, o heç vaxt mübarizəsindən geri çəkilmir. İranın dövlət konstitusiyasında biz türklərin bütün hüquqlarının müdafiə olunduğu, elm-təhsil hüquqları qorunduğu göstərilsə də, soydaşlarımız bunun əksini görürlər.

**- Deyirsiniz ki, Abbas Lisanini qazamata qədər aparan səbəb onun soydaşlarımızın haqqını tələb etməsidir və siz də buna görə onun azadlığa çıxmasını israr edirsiniz...**

- Bəli. O, 1967-ci il fevral ayının 18-də yoxsul bir ailədə doğulub. Özü də ata-ana tərəfdən tər-təmiz oğuz türküdür, xalqını da səmimi qəlbdən sevir, çox səbrli və çox böyük ədəb-əxlaq sahibidir. Ən gənc yaşlarından da öz məqalələri ilə Azərbaycan türklərinin ana dillərində təhsil almaq hüquqlarından məhrum edilməsi ilə bağlı çıxışlar edib.

**- Fəzail müəllim, siz Abbas Lisaninin pərəstişkarısınız. Bəs necə olub ki, bir dəfə də olsun onunla görüşməyə cəhd göstərməmisiniz?**

- Mən Təbrizə, Ərdəbilə gedəndə Abbas Lisani ilə də görüşmək istəmişəm, lakin görüşümüz alınmayıb. Maddi cəhətdən imkansızlıq onunla görüşümə mane olub. Abbas Lisani ilk dəfə milli fəal kimi 30 yaşında qeydə alınıb. 1997-ci ildən başlayaraq Bəzz-Babək qalasına yürüşlərdə iştirak edib və orada çox odlu-alovlu, kəskin çıxışlar edib. Həmin çıxışlarda da deyib ki, Bəzz qalası bizim cümhuriyyət qalamızdır. Yəni ki, biz heç vaxt Babəkimizdən dönə bilmərik, Babək Allahsız adam olmayıb. Abbas Lisaninin apardığı mübarizə sırf Cənubi Azərbaycandakı soydaşlarımızın əzilən haqlarının, milli hüquqlarının bərpasına nail olmaqla bağlıdır. Mən burada Mahmudəli Çöhrəqanlının apardığı siyasi mübarizə ilə Abbas Lisaninin apardığı siyasi mübarizəni eyniləşdirə bilmərəm, çünki onlar arasında fərqlər var. Çöhrəqanlının apardığı mübarizə, sadəcə, parlament səviyyəsində olan mübarizədir. Abbas Lisaninin isə siyasi mübarizəsinin mayasında, kökündə o tay, bu tay Azərbaycanın milli birliyinə nail olmaq, Ağa Məhəmməd Şah Qacardan sonrakı Azərbaycanın birləşdirilməsi durur. Abbas Lisani deyir ki, mən Vətənimdən, millətimdən getmirəm. Son dövrlər Güney Azərbaycandan dünyanın müxtəlif ölkələrinə xeyli sayda türk gedir. Abbas Lisani isə buna qarşıdır. O deyir ki, mən mübarizəmi burada aparıb, haqq uğrunda vətənimdə öləcəyəm. Abbas Lisani sonuncu dəfə həbs ediləndə ona 10 il həbs verdilər. Abbas Lisanini bir neçə dəfə həbs ediblər və məsləkdaşlarını, yaxınlarını yanına buraxmayanda aclıq edib. O, sonuncu dəfə 47 gün aclıq etdikdən sonra həbs olunub. Onun bacısı da, həyat yoldaşı da Abbas Lisanini müdafiə edirlər, onun yolu ilə gedirlər. Abbas Lisaninin həyat yoldaşı deyir ki, İran rejimi orta məktəblərdə türk dilinin fakültativ məşğələ kimi tədrisinə icazə verməklə gözə kül üfürür.

**- Fəzail müəllim, Abbas Lisaninin müdafiəsi ilə bağlı yazılarınız, şeirləriniz onun ailəsinə çatırmı, onların bundan xəbəri varmı?**

- Çox arzu edərdim ki, onların bundan xəbərləri olsun. Mən Abbas Lisaninin azadlığa çıxması üçün könülü olaraq bu işləri görürəm. Onun sönməz mübarizliyi onu gözlərimdə böyüdür. Bu gün onu təkcə mən müdafiə etmirəm, xaricdəki soydaşlarımız da müdafiə edirlər. Sosial şəbəkələrdə, internetdə onun azadlığa çıxması ilə bağlı çoxlu çağırış var. Abbas Lisanini yenilməzliyinə və dönməzliyinə görə yalnız dünya siyasətçiləri içində xüsusilə seçilmiş Nelson Mandela ilə müqayisə edə bilərəm.

***İradə SARIYEVA***






*"Mən Təbrizə, Ərdəbilə gedəndə Abbas Lisani ilə də görüşmək istəmişəm, lakin görüşümüz alınmayıb"*